**İran İslam Respublikasının Naxçıvandakı**
**Baş Konsulluğunun mədəniyyət attaşeliyi**




# 12-18 noyabr 2022-ci il-İran İslam Respublikasının

# 30-cu kitab həftəsi

İran İslam Respublikasında kitab və kitab oxuma gününün adlandırılması

İranda 1995-ci il noyabr ayının 15-i kitab və mütaliə günü olaraq adlandırılıb. Bu gün həm də kitab həftəsinin günlərindən biridir. İran İslam Respublikasının ilk kitab həftəsi 1993-cü il dekabrın 25-dən 31-ə qədər keçirilib.

İran İslam Respublikasının 30-cu Kitab Həftəsi bu il də "Oxuyan bizik" şüarı ilə 2022-ci ilin noyabr ayının 12-dən 18-dək keçiriləcək.




Bilik qapısı

Kitab geniş elm və biliyə aparan qapıdır. Yaxşı kitab isə insanın kamilləşməsi üçün ən yaxşı vasitələrdən biridir.

İran İslam Respublikasının Ali Rəhbəri Ayətullahul Üzma Seyid Əli Xamenei

# İslam İnqilabının Ali Rəhbər Həzrət Ayətullahul Üzma Seyid Əli Xameneinin  Kitab və Mütaliə Barəsində Tövsiyələrinə Baxış

## Bilik Dünyasına Açılan Qapılar

**“Siz kitaba diqqət yetirməlisiniz. Kitablara diqqət yetirmək əslində kitab oxumağa diqqət yetirməyə bənzəyir. Cəmiyyətdə kitab oxumaq ənənəsi yayılmalıdır... Məncə ən pis və ən zərərli tənbəlliklərdən biri kitab oxumağa tənbəllikdir.”**

Kitaba diqqət yetirmək və mütaliə etmək həmişə Ayətullahul Üzma Seyid Əli Xameneinin mədəni qayğılarından biri olub. İnqilab Rəhbərinin “Kitab və Mütaliə Günü” münasibəti ilə bağlı Bəyanatından seçmələri yenidən xatırlatmaq istəyirik!

### 1) Kitabın və Mütaliənin Əhəmiyyəti və Yeri

- **İran Xalqının Kitablarla Tarixi Bağlılığı**

Bizim İran və müsəlman xalqı olaraq kitablarla əlaqələrimiz əsaslı, qədim və köklüdür. Biz kitablarla təzə tanış olmamışıq. Ölkəmizdə, xüsusən İslam dini yayıldıqdan sonra qədim tarixə malik elmi kolleksiyalar, qiymətli yazıları olan nəhəng kitabxanalarımız mövcuddur. Biz kitablarla bağlı qədim tarixə malik olan xalqıq. Əsrlər boyu kitablarla ünsiyyətdə olmuşuq. (Tarix:19.07.2016)

- **Kitabı Heç Nə Əvəz Edə Bilməz**

Hər nə qədər irəli getsək, kitaba ehtiyacımız da bir o qədər çoxalacaq. Kiminsə yeni texnologiya vasitələrinin ortaya çıxması ilə kitabın əhəmiyyətinin azalacağını düşünməsi yanlışdır. Bu gün kitab insan cəmiyyətində daha çox əhəmiyyət kəsb edir. Yeni yaranan vasitələrin ən mühüm sənəti kitabların mövzusunu, məzmununu və kitabların mühtəvasını asanlıqla və daha rahat çatdırmaqdır. Kitabı heç nə əvəz edə bilməz.

- **Elm və Bilik Dünyasına Açılan Qapılar**

Kitab ucsuz-bucaqsız elm və bilik aləminə açılan qapıdır. Yaxşı kitab insanın kamilləşməsi üçün ən yaxşı vasitələrdən biridir... Bu gözəl və həyat verən dünyaya, kitablar aləminə aidiyyatı olmayan insan, şübhəsiz ki, ən mühüm bəşəri nailiyyətdən, həm də ən ilahi və bəşəri biliklərdən məhrumdur... Bu nöqteyi-nəzərdən bu tarixi həqiqətin dəyərini və dərin mənasını aydın şəkildə dərk etmək olar. Uca Allahın həzrət peyğəmbərə (s) ilk xitabı belədir:

- “Oxu!”

Allahın əzəmətli risalətinin nazil olduğu ilk surədə qələmin adı təriflə zikr edilmişdir:

- “اقرأ و ربک الاکرم، الذی علم بالقلم.”

(Tarix: 25.12.1993)

- **Millətin Mütaliə Etməməsi Səbəbindən Hər Saat Zərər Görürük!**

Bizim millətimiz oxumağı qətiyyən bəşəri iş hesab etmir! Qidalanmaq, idman etmək və bu kimi insani fəaliyyətlərdən fərli olaraq, mütaliə etmək qətiyyən insani fəaliyyətlər sırasında deyil. Ya birinin elmi dərəcəsi olmalıdır, ya səhər imtahanı olmalıdır, ya müəllim onun oxumağını istəməlidir, yaxud da alim olmalıdır, yaxud da haradasa çıxış etməlidir ki, mütaliə etməsinə səbəb olsun. Bu nə qədər də zərərlidir! Doğrudan da Allah bilir ki, heç vaxt unuda bilməyəcəyim şey yadıma düşəndə ki, bizim millət oxumağı sevmir, narahat oluram! Buna görə hər saat nə qədər zərər görürük!

- **Biz Mütaliə Etməkdə Qabaqcıl Olmalıyıq!**

İslam kitaba, oxumağa və yazmağa böyük önəm verir. İran İslam təfəkkürünün bayraqdarı və İslamın hökm sürdüyü bir ölkə olduğundan bura kitab mütaliəsi, kitab istehsalı və tədqiqi baxımından dünya ölkələrinin lideri olmalıdır. Bu məqsədə çatmaq üçün isə İslam ölkəsi olan İranda mütaliənin səviyyəsi bu gün nəzərdə tutulandan on dəfə artıq olmaqla, daha çox inkişaf etməlidir. (Tarix:22.10.1996)

## 2) Mütaliə Barəsində Tövsiyələr




- **Mütaliə Etməyə Vərdiş Edin**

Kitab oxuyan insan dünyada mövcud olan biliklərdən bir parça əldə edəcək. O, dünya ilə bağlı olan məlumatlar, hətta digər sahələrdə olan biliklərdən xəbərdar olacaq. Ona görə də kitab oxumağı vərdişləriniz sırasına daxil etməlisiniz. (Tarix:11.05.1993)

- **Gənc Yaşda Mütaliə Daha Təsirli Olur**

Yuxarı yaşda mütaliə etməyin təsiri gənc yaşda kitab oxumaqdan qat-qat azdır... İnsanlar üçün həmişə faydası olan şey gənc yaşda oxumaqdır. Gəncləriniz, övladlarınız bacardıqca kitab oxusunlar. Fərqli üsullarla, müxtəlif üsullarla bir şey öyrənsinlər.

- **Uşaqları Mütaliəyə Təşviq Edən Proqramlar Lazımdır**

Kitaba diqqət yetirmək lazımdır. Kitablara diqqət yetirmək əslində kitab oxumağa diqqət yetirməyə bənzəyir. Kitab oxumaq ənənəsi cəmiyyətdə yayılmalıdır... Məncə ən pis və ən zərərli tənbəlliklərdən biri kitab oxumaqda tənbəllikdir. İnsan bu tənbəlliyə nə qədər çox imkan verirsə, tənbəllik də bir o qədər də artır. Mütaliə cəmiyyətdə təbliğ edilməlidir. Bu iş isə bu sahədə məsuliyyət daşıyan bütün qurumların üzərinə düşür. İbtidai siniflərdən başlayaraq uşaqlarımızda kiçik yaşlarından kitab oxumağa vərdiş yaradan proqramlar olmalıdır. Kütləvi informasiya vasitələri, "Seda o Sima" kanalı və digər təbliğat vasitələri ilə düşünərək mütaliə edib araşdırmağı öyrətmək lazımdır. (Tarix:19.07.2016)

- **Zehninizi Məşğul Edərək Mütaliə Etməyi Məşq Edin!**

Bəzi zehnlər kitab əhlidirlər. Amma asan, düşünməyi tələb etməyən kitablar oxuyurlar. Heç bir problem yoxdur. bu da mütaliə sayılır. Biz bunu inkar etmirik. Amma bu növ olan mütaliədə daha yaxşı olar ki, insan öz kitab kolleksiyasına yeni kitablar əlavə edə bilsin. Təfəkkür etmək tələb edən romanlar, memuarlar, tarixi növdə olan asan kitabları mütaliə etmək lazımdır. Bu növ kitablar mütaliə kateqoriyasına daxil edilməlidir. Zehnimizin təfəkkür və tədqiq üzrə çalışması üçün fəaliyyət göstərməliyik. Kitab oxumaqla zehn fəaliyyət göstərməlidir.

- **İsraf Etdiyiniz Zamanınızı Oxumağa Sərf Edin!**

Mən bütün insanların kitaba və mütaliəyə ciddi yanaşmasını, bütün boş vaxtlarında, məsələn, taksidə, avtobusda və ya bu kimi digər zamanlarını mütaliəyə ayırmalarını arzu edirəm. Çünki insanlar vaxtını mütaliə etmək üçün düzgün sərf etməyə adət etsələr, cəmiyyət tərəqqi və inkişaf edər.

(Tarix:11.05.1996)

- **Müxtəlif Təbəqələr Üçün Dərs Vəsaiti Hazırlayın**

Bu gün çox ehtiyacımız olan şeylərdən biri müxtəlif qruplar üçün mütaliə proqramlarıdır. Çox vaxt olur ki, biz gəncləri kitab oxumağa təşviq edirik.Müraciət edərək soruşurlar ki, nə oxuyaq? Bu sualın bir cavabı yoxdur. Yəqin ki, bunun bir neçə cavabı var. Bu məsələyə cavabdeh olan şəxslər ciddi çalışmalıdırlar. Müxtəlif təbəqələr üçün fərqli yollarla, müxtəlif üsullarla, uyğun formada mütaliə vasitələri hazırlayın.

(Tarix:19.07.2016)